AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# ÜFÜQİ MONİTORİNQ
## VERGİ NƏZARƏTİNİN ŞƏFFAF VƏ ƏMƏKDAŞLIĞA ƏSASLANAN MODELİ

BAKI – 2026

Bu buklet üfüqi monitorinq mexanizminin əsas prinsiplərini, şərtlərini, hüquq və vəzifələri, eləcə də tətbiq qaydalarını əhatə edir və iştirak etmək istəyən vergi ödəyiciləri üçün praktiki məlumat mənbəyi kimi nəzərdə tutulmuşdur.

# Üfüqi monitorinq nədir?

Üfüqi monitorinq vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarətin yeni formasıdır. Bu mexanizm klassik səyyar və kameral yoxlamalardan fərqli olaraq davamlı informasiya mübadiləsinə, daxili nəzarət sisteminə və vergi risklərinin əvvəlcədən açıqlanmasına əsaslanır.

Modelin əsas ideyası dövlət və vergi ödəyicisi arasında açıq əməkdaşlıq qurmaq, riskləri erkən mərhələdə müəyyən etmək və nəzarəti daha proqnozlaşdırıla bilən formada həyata keçirməkdir.

Üfüqi monitorinq transfer qiymətləri və xarici dövlət orqanlarından daxil olan məlumatların araşdırılmasını əhatə etmir. Bu istiqamətlər ayrıca nəzarət tədbirləri ilə həyata keçirilir.

**Monitorinqin əhatə dairəsi və müddəti**

Üfüqi monitorinq təqvim ili üzrə aparılır və başladığı tarixdən əvvəlki bir təqvim ilini də əhatə edir.

Monitorinq:

- 6 ay müddətində başa çatdırılır;
- Zərurət yarandıqda müddət 2 ayadək uzadıla bilər.

Monitorinq mənfəət və gəlir vergisi bəyannamələrinin təqdim edilməsindən sonra başlanır və rəsmi qərarla qüvvəyə minir.

**Üfüqi monitorinqə kimlər qəbul edilə bilər?**

Bu mexanizm yalnız müəyyən meyarlara cavab verən vergi ödəyiciləri üçün nəzərdə tutulmuşdur.

Qəbul üçün əsas şərtlər:

- Vergi ödəyicisi orta və ya iri sahibkarlıq subyekti olmalıdır;
- Mühasibat və vergi uçotu avtomatlaşdırılmış proqram təminatı vasitəsilə aparılmalıdır;
- Daxili nəzarət sistemi qurulmalı və mümkün vergi riskləri sistemli şəkildə müəyyən edilməlidir;
- Risklərin idarə olunması prosedurları formalaşdırılmalıdır.

Aşağıdakı hallarda qəbul mümkün deyil:

- Vergi ödəyicisi riskli subyekt kimi tanınmışdırsa;
- Vergi qanunvericiliyinin pozulması ilə bağlı cinayət işi mövcuddursa.

**Müraciət və qəbul prosesi**

Üfüqi monitorinqə qoşulmaq üçün vergi ödəyicisi əvvəlcədən müəyyən edilmiş müddətədək ərizə təqdim edir.

Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

- Vergilərin hesablanması və ödənilməsi prosesinə dair məlumatlar;
- Daxili nəzarət sisteminin təsviri;
- Vergi risklərinin siyahısı və həmin risklərə nəzarət mexanizmi.

Vergi orqanı sənədlərə müəyyən edilmiş müddətdə baxır və əsaslandırılmış qərar qəbul edir.

Qəbul barədə qərar bir dəfə verilir və vergi ödəyicisi sistemdən çıxarılmadığı müddətdə növbəti illərdə də qüvvədə qalır.

**Monitorinq dövründə yoxlamalar**

Üfüqi monitorinqə qəbul edilən vergi ödəyicilərində monitorinqin əhatə etdiyi hesabat dövrləri üzrə:

- Kameral yoxlamalar aparılmır;
- Səyyar vergi yoxlamaları aparılmır.

Lakin müəyyən hallarda növbədənkənar yoxlama mümkündür. Bu hallar aşağıdakılarla məhdudlaşır:

- Transfer qiymətlərinin tətbiqi;
- Xarici dövlətlərin səlahiyyətli orqanlarından daxil olan sorğular;
- Xaricdə əldə olunan gəlirlərlə bağlı məlumatlar.

Bu halda yoxlama yalnız həmin əməliyyatlar üzrə aparılır.

**Vergi ödəyicisinin öhdəlikləri**

Üfüqi monitorinq çərçivəsində vergi ödəyicisi:

- Vergilərin hesablanması və ödənilməsi ilə bağlı sənəd və məlumatları xüsusi elektron məlumat mübadiləsi platformasında yerləşdirməlidir;
- Vergi orqanına həmin platformaya çıxış imkanı yaratmalıdır;

- Daxili nəzarət sistemini fasiləsiz tətbiq etməlidir;
- Mümkün vergi riskləri barədə məlumatı və həmin risklərə nəzarət prosedurlarını təqdim etməlidir.

Sənədlər vaxtında təqdim edilmədikdə və ya ardıcıl olaraq tələblər pozulduqda monitorinq dayandırıla bilər.

**Dəqiqləşdirilmiş bəyannamə imkanı**

Monitorinqin başlama tarixindən etibarən 15 gün ərzində vergi ödəyicisi dəqiqləşdirilmiş vergi bəyannamələri təqdim edə bilər.
Bu mexanizm vergi uçotunda mümkün texniki və ya metodoloji uyğunsuzluqların operativ şəkildə aradan qaldırılmasına şərait yaradır.

**Könüllü açıqlama mexanizmi**

Səyyar vergi yoxlaması və ya üfüqi monitorinq başa çatdıqdan sonra yoxlama zamanı aşkar edilməmiş, lakin vergi öhdəliyinin yaranmasına səbəb olan hallar könüllü şəkildə bəyan edilə bilər.
Bu, aşağıdakı öhdəlikləri də əhatə edir:

- Vergilər;
- Məcburi dövlət sosial sığorta haqları;
- İşsizlikdən sığorta haqları;
- İcbari tibbi sığorta haqları.

Bundan əlavə, belə hallar 3 illik müddətdən əvvəlki dövrlər üzrə də könüllü olaraq bəyan edilə bilər.
Könüllü açıqlama vergi intizamının gücləndirilməsinə və şəffaf fəaliyyət mühitinin formalaşmasına xidmət edir.

**Maliyyə sanksiyaları**

Üfüqi monitorinq zamanı vergitutma bazasının azaldılması və ya verginin düzgün hesablanmaması aşkar edilərsə, qanunvericilikdə nəzərdə tutulmuş maliyyə sanksiyası tətbiq edilir.
Elektron məlumatlar əsasında aşkar edilmiş azaldılmış və ya yayındırılmış vergi məbləğinə görə həmin məbləğin 25 faizi miqdarında maliyyə sanksiyası tətbiq olunur (qanunvericilikdə nəzərdə tutulan istisnalar saxlanılmaqla).

Lakin vergi ödəyicisi mümkün vergi risklərini monitorinq başlamazdan əvvəl daxili nəzarət sistemi vasitəsilə açıqlamışdırsa, həmin hallara görə maliyyə sanksiyası tətbiq edilmir.

**Amortizasiya üzrə xüsusi imkanlar**
Üfüqi monitorinqə qəbul edilən vergi ödəyiciləri əsas vəsaitlər üzrə amortizasiya ayırmalarını iki metoddan biri ilə hesablaya bilərlər:

- Düz xətt metodu;
- Azalan qalıq dəyəri metodu.

Seçilmiş metod barədə müəyyən edilmiş tarixədək məlumat verilməlidir və bu metod 3 il ərzində dəyişdirilə bilməz.
Əsaslı və cari təmir xərclərinin uçotu xüsusi qaydada aparılır və müəyyən hallarda əsas vəsaitlərin qalıq dəyərinə əlavə edilir.

**Monitorinqin dayandırılması və sistemdən çıxarılma**
Aşağıdakı hallarda üfüqi monitorinq dayandırılır:

- Vergi ödəyicisinin öz təşəbbü
- Sənədlərin təqdim edilməsi ü ələblərin ardıcıl iki dəfə pozulması;
- Müəyyən əsaslarla növbədənkənar səyyar yoxlamanın başlanması;
- Riskli vergi ödəyicisi statusunun verilməsi;
- Vergi qanunvericiliyinin pozulması ilə bağlı cinayət işinin başlanması.

**Monitorinqin nəticələri**
Monitorinq başa çatdıqdan sonra müəyyən edilmiş müddətdə:

- Vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb etmə barədə qərar,
  və ya
- Məsuliyyətə cəlb etməmək barədə qərar qəbul edilir.

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

**www.taxes.gov.az**